# CACS AUDİT MMC

Müstəqil Auditorun Hesabatı

«AzRe Təkrarsığorta» Açıq Səhmdar Cəmiyyətinin
Səhmdarlarına və İdarə Heyətinə
Azərbaycan Respublikası, Bakı şəhəri,
Bakıxanov küçəsi 6, "Bridge Plaza".

**Maliyyə hesabatları üzrə hesabat**

Biz «AzRe Təkrarsığorta» Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Qrup") 31 dekabr 2014-cü il tarixinə konsolidə edilmiş maliyyə vəziyyəti, məcmu gəlirlər, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

*Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti*

Rəhbərlik göstərilən maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

*Auditorun məsuliyyəti*

Bizim vəzifəmiz isə həmin maliyyə hesabatları üzrə apardığımız auditə əsaslanaraq rəyin bildirilməsidir. Audit beynəlxalq audit standartlarına uyğun olaraq aparılmışdır. Həmin standartlara uyğun olaraq, bizdən auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə əmin olacaq tərzdə həyata keçirmək tələb olunur. Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlanan məlumatı dəstəkləyən sübutun test əsasında yoxlanılması daxildir. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir. Biz inanırıq ki, apardığımız audit rəy bildirilməsi üçün kifayət qədər əsas verir.

*Rəy*

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2014-cü il tarixinə Qrupun konsolidə edilmiş maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə məcmu gəlirlər və pul vəsaitlərinin hərəkəti

üzrə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

«CACS Audit» MMC-nin

direktoru Valid Hüseynov

auditoru Azad Sadıxov

22 iyun 2015-ci il

Bakı, Azərbaycan Respublikası



Matbuat ave. 3138-3141

Baku,AZ1100 Azerbaijan

Tel: +994 12 505 23 30

Fax: +99412 505 23 31

E-mail: office@cacs.az